# Rəqəmsal informasiya texnologiyaları klassik milli ədəbiyyatımızın qlobal təbliğinə geniş imkanlar açır...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi**

**Azərbaycan ədəbiyyatının həm cəmiyyətdə, həm də dünyada təbliğ edilməsi əsas prioritetlərdən biridir. Dövlətin mədəniyyət siyasətində Azərbaycanın klassik və müasir ədəbiyyatının təbliğ edilməsi, tanıdılması, daha çox insana çatdırılması, dünya üzrə milli ədəbiyyatımızla maraqlananlar üçün onun əlçatan edilməsi mühüm istiqamətlərdən birdir.**

Heç şübhəsiz, çağımızda milli ədəbiyyatımızı dünyanın hər yerinə daşıya biləcək vasitə ədəbiyyat nümunələrinin rəqəmsallaşdırılmasıdır. Bu proses Azərbaycanda xeyli müddətdir başlayıb və davam etdirilir. Onu da qeyd edək ki, bu işdə ölkəmizin mobil operator şirkətləri aktivlik edir və onlar ədəbiyyatın təbliği sahəsində rəqəmsallaşdırma işlərini həyata keçirirlər.

**Əlyazmalıqdan rəqəmsallaşdırılmaya...**

Ədəbiyyatşünasların sözlərinə görə, müasir informasiya kommunikasiya texnologiyalarından istifadə etməklə Azərbaycan klassiklərinin əsərlərinin rəqəmsallasdirilmasinda çox mühümdür. Bu layihələrin bizim üçün hərtərəfli faydası olduğunu deyən ekspertlərin sözlərinə görə, rəqəmsallaşdırmanın müsbət cəhətləri çoxdur, onlardan da biri bu nümunələrin gəncliyə bu vasitə ilə çatdırılmasıdır.

Ədəbiyyatşünaslar hesab edir ki, nəinki klassik şairlərin, eləcə də qədim və orta əsrlərdə, XVIII-XIX yüzilliklərdə yaşamış mütəfəkkirlərin, alimlərin bədii və elmi əsərlərinin rəqəmsallaşdırılması prosesi çox sürətlə getməlidir. Bu gün Azərbaycanda mövcud olan əlyazmaların belə rəqəmsallaşdırılmasının çox vacib olduğunu deyən ekspertlərin fikrincə, bu bizim əlyazmalarımızın beynəlxalq təbliğatında, tanıdılmasında və daha çox istinad edilməsində mühüm rol oynaya bilər. Bildirək ki, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Füzuli adına Əlyazmalar İnstitutunun fondunda saxlanılan əlyazmaların rəqəmsallaşdırılması prosesinə çoxdan başlanılıb və artıq bu sahədə xeyli iş də görülüb. İnstitutda saxlanılan əlyazmaların elektronlaşdırılması istiqamətində görülən işlərin effetivliyini şübhə altına almaq olmaz, çünki çox faydalı işlər görülüb.

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında" Sərəncamına uyğun olaraq Nizaminin əsərlərinin əlyazmalarının rəqəmsallaşdırılması və elektron bazanın yaradılmasını əsas istiqamətlərdən biri olaraq həyata keçirir.

**Ədəbiyyatı populyar edən rəqəmsallaşdırma...**

Rəqəmsallaşma elektron ədəbiyyatın formalaşmasına və populyarlaşmasına çox dəstək göstərir. Ekspertlərə görə, aktiv rəqəmsallaşma və internetləşmə xalqların ümumi bəşəri dəyərlər əsasında birləşməsinə kömək edən yeni bir mühit meydana gətirir. Məsələn, dahi Nizami Gəncəvinin əsərləri rəqəmsallaşdırılıb və bunlar ümumbəşəri dəyər kimi dünya üçün böyük maraq kəsb edir. Nizamini bütün dünya oxuyur, amma rəqəmsallaşma bu oxucu halqasını daha da genişləndirir.

**Nizaminin əsərləri ilə bağlı yeni rəqəmsal töhfə…**

Dahi şair və böyük mütəfəkkir Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə 2021-ci il Prezident İlham Əliyevin sərəncamına əsasən elan edilən "Nizami Gəncəvi İli" çərçivəsində "Azercell Telekom" Nizami əsərlərinin ən sevilən nümunələrini rəqəmsal mütaliə vasitələrilə təbliğ etmək təşəbbüsü ilə çıxış edir. Məlumatlara görə, "Azercell"in dəstəyilə Nizaminin 40-dan çox seçilmiş fəlsəfi və lirik məzmunlu müxtəlif ölçülü əsərləri Azərbaycan, rus, ingilis, fransız və türk dillərində



Bookmate proqramının "Audiobook" bölməsinə yerləşdiriləcək. Audio faylların hazırlanmasında digər bir özəl xüsusiyyət onların orijinal fon musiqiləri ilə təqdim olunmasındadır. Ud, tar, kamança və digər qədim musiqi alətlərinin müşayiəti ilə dil daşıyıcıları tərəfindən səsləndiriləcək poeziya nümunələri daha təsirli və xalqımızın mədəni irsi baxımından daha mütəşəkkil ifadə olunacaq.

"Azercell" tərəfindən daha bir maraqlı yenilik isə layihə çərçivəsində Nizami Gəncəvinin iki əsərinin: "Kərpickəsən kişinin dastanı" və "Adil Nuşirəvan ilə vəzirin hekayəti" əsərlərinə komiks janrında şəkillərin çəkilməsi və komiks toplusundan ibarət kitabın tərtib edilməsidir. Qeyd edək ki, həmin komikslər də Azərbaycan, rus və ingilis dillərində adaptə ediləcək.

**Nəsiminin seçmə qəzəllərini və "Koroğlu" dastanının 10 qolu...**

Yayılan məlumatlara görə, Nizami Gəncəvinin əsərlərindən əvvəl "Azercell" rəqəmsal kitabxana üçün İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə şair və filosofun seçmə qəzəllərini, "Koroğlu" dastanının 10 qolunu və müxtəlif klassik müəlliflərin əsərlərini audiokitab formatında hazırlayaraq beynəlxalq Bookmate tətbiqinə yükləmişdir.

Bütövlükdə, Azərbaycan ədəbiyyatının, xalq yaradıcılığının, folklorunun müxtəlif nümunələrinin rəqəmsallaşdırılması çox müsbət bir haldır. Əlbəttə, sadaladıqlarımız görülən və görülməli olan işlərin çox cüzi hissəsidir. Sözsüz, bu istiqamətdə Mədəniyyət Nazirliyinin, AMEA-nın və başqa qurumların xəttiilə, ölkəmizin mobil operatorlarının, eləcə də informasiya, kommunikasiya texnologiyaları təşkilatlarının da qatqısı ilə Azərbaycan ədəbiyyatının rəqmsallaşdırılması prosesinə başlanılıb. Ədəbiyyatın, söz sənətinin rəqəmsallaşdırılması, özü də başqa dillərdə də səsləndirilməsi bir uğurdur. Ekspertlər deyir ki, rəqəmsal format, rəqəmsal daşıyıcılar meydana çıxandan kağız daşıyıcılardan, artıq yüksən xilas olunub. İndi Azərbaycan ədəbiyyatını, klassik irsini xaricdə təbliğ etmək üçün cild-cild kitablar daşımağa ehtiyac yoxdur, rəqəmsal formatda ərsəyə gətirilən kitablar bu məsələdə mühüm rol oynayır.

Azərbaycan ədəbiyyatının rəqəmsallaşdırılması, elektrinlaşdılması Azərbaycan dövlətinin mədəniyyət siyasətinin tərkib hissəsidir. Bu baxımdan görülən hər bir işdə dövlətin qatqısı var. Ümid edirik ki, Azərbaycan bölgədə rəqəmsallaşdırma sahəsində də lider olacaq, çünki buna imkan da, şərait də, əsas da var.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**